# Bir şəklin tarixi



**Aşıq musiqisi sinkretik mədəniyyət janrı kimi, mənsub olduğu xalqın bütün təbəqələri tərəfindən qəbul edilərək onun gündəlik məişətinə daxil olmuşdur. Şirvan aşıq məktəbi özünəməxsusluğu ilə seçilir.**

**Gəlimli-gedimli dünya...**

*Tale tərəqqidən salsa insanı*
*Atılıb düşməyin nə mənası var.*
*Bir bulaq gözündən qurusa onu*
*Min yerdən eşməyin nə mənası var?*

* * *

*Yüz rənglə naxış var, min yolla bəzə,*
*Sabah köhnələcək bugünkü təzə.*
*Taleyin hökmüylə bağlanan gözə,*
*Qızıldan çeşməyin nə mənası var?*

* * *

*Hər kəsin taleyi xoş keçsə əgər,*
*Əyninə bez geysə, "atlas" deyərlər.*
*Bəxti kəm alimə nadan atsa şər,*
*İnciyib küsməyin nə mənası var?*

* * *

*Əhməd, el məsəlin gəl eşit sən də,*
*Daş düşər qürbətə yük əyiləndə.*
*Zərdən şeş istəyib yek gətirəndə,*
*Qovrulub-bişməyin nə mənası var?*

**Aşıq Əhməd**

Burada aşıq ifa edərkən onu balaban alətindən başqa, Qərb regionundan fərqli olaraq nağara, qoşa nağara və XX əsrin ikinci yarısından başlayaraq bəzən qarmon da müşayiət edir. Söz yox ki, Göyçə, Gədəbəy, Qazax, Tovuz, Borçalı aşıq məktəbi bu gün özünün böyük inkişaf yolunu keçən əzəmətli bir sənət qalasına çevrilmişdir.

Aşıq sənəti ulu sənətdir. Təsadüfü deyildir ki, Şah İsmayıl Xətai döyüşə gedərkən həmişə qoşunun önündə ozan aşıqların zurnanın ifasında ruhu qaldıran əzəmətli musiqi nümunələri səslənməsini əmr edərmiş. Dədə Ələsgər, Aşıq Bilal, Aşıq Qurbani, Dədə Şəmşir, Aşıq Mikayıl Azaflı, Aşıq Kamandar, Aşıq Əkbər, Aşıq Hüseyn Saraclı, Aşıq Şakir, Aşıq Məmmədağa, Aşıq Ədalət, Aşıq Pənah, Aşıq Qurbanxan və başqa ustadlarımız daim xalqın xeyir işlərində iştirak edərək onların şad günlərində toy məclislərini idarə edirdilər. Mənim haqqında danışacağım ustad aşıq illər boyu bu ulu sənətin inkişaf edib yüksəklərdə dayanmasına güclü təkan vermişdir.

Aşıq Əhməd Rüstəmov 1971-ci ildə Sabirabad rayonunun Güdəcühür kəndində toy mərasiminə dəvət olunmuşdu. Kəndimizdə yaşayan el sənətkarı Vəli Vəliyevin istəyi ilə şənliyə qatılan Aşıq Əhməd Rüstəmov toy keçirilən mağarda elə bir məharət göstərmişdi ki, həmin vaxtdan çox illər keçməsinə baxmayaraq mərasim indi də insanların yaddaşından silinmir. Mən də uzun illər keçməsinə baxmayaraq bu ustad sənətkarı heç vaxt unutmamışdım. Aşıq Əhməd vaxtı ilə atamın toy mərasimində iştirak etdiyinə görə mərhum nənəm də hafizəsində saxlamışdır.

Həmin toy mərasimində Bilqeys nənəm sənətkarla söhbət etmişdi. Əhməd əmi söhbət əsnasında nənəmdən bir xahiş etmişdir. Nənəm də illər keçməsinə baxmayaraq həmin xahişi yaddan çıxarmamışdır. Bu istək müəyyən səbəbdən həyata keçmədi. Taledən qaçmaq olmaz. Beləliklə, mən



Kürdəmirdən olan tanışlarımdan böyük sənətkarı tez-tez soruşardım.

Artıq onun sazı yerə qoyduğunu eşitmişdim. Mənim isə arzum onu görmək idi. Bu arzu uzun illər çin olmadı. Nəhayət, 2008-ci il iyulun 7-də ustad aşıqla görüşmək üçün Kürdəmirə yola düşdüm.

Mədəniyyət və turizm şöbəsinin müdiri Vaqif Alıyev vacib bir iş üçün başqa yerə getdiyinə görə məni şöbənin inspektoru qarşıladı. Gəlişimin məqsədini söylədikdə o məni bir nəfərlə Əhməd əmigilə yola saldı. Mədəniyyət evinə yaxın olan evlərinin darvazasını açarkən məni evin xanımı Mələk xanım qarşıladı. Əhməd əmi ağır vəziyyətdə yataqda uzanmışdı. İçəri daxil olarkən ustad uzandığı vəziyyətdə olmasına baxmayaraq mənimlə hal-əhval tutdu.

Çox səlis, məntiqli bir nitqlə danışırdı. Haradan gəldiyimi soruşanda mən ustada Sabirabaddan gəldiyimi və "Mədəni-Maarif" jurnalında onun haqqında bir neçə söz yazmaq istədiyimi bildirdim. Söhbətimiz çox uzun oldu və ona bir neçə sual verdim. Ustad suallara təmkinlə cavab verirdi. O, söhbət əsnasında Şirvan Aşıq məktəbində 200-ə yaxın aşıq havasının mövcud olduğunu söylədi. O, Aşıq Əhlimanın adını çəkərək hazırda onun Şirvan Aşıq məktəbinin yükünü çiyinlərində daşıdığını bildirdi.

Ustad aşığın söylədiyi bir fikir məndə böyük maraq oyatdı. O dedi ki, Dədə Ələsgərin 160 il bağlı qalmış qıfılbəndini yalnız mən açmışam. Mən ondan "Əhməd əmi, bugünkü sənətkarlardan razısınızmı?!"-deyə soruşanda, o özündən narazı olduğunu söylədi: "Güc olmayan yerdə qeyrət də kömək etmir. Bax indi yataqdayam, kim bilir nə qədər yaşayacağam. Aramızda münaqişələr oldu, narazılıqlar baş verdi".

Ustad bu sözlərlə nə demək istəyirdi, bunu daha ondan soruşmağa cürət etmədim. Söhbətimizi yekunlaşdırmaq istəyirdim ki, iş yerində mənimlə görüşə bilməyən Kürdəmir Rayon Mədəniyyət Şöbəsinin müdiri Vaqif Alıyev ustad sənətkara baş çəkməyə gəldi. Nə yaxşı ki, həmin dəqiqədə o özünü yetirdi.

Mən evimizdən yola düşən zaman özümlə fotoaparat götürmüşdüm. Vaqif müəllimin köməkliyi sayəsində ustad aşıqla həyatında axırıncı olan şəklini çəkdirdim. Həmin şəkil hələ uzun illər arxivimi bəzəyəcək. Ustad sənətkardan ayrılarkən Əhməd əmi bir söz dedi: "Oğul, gəl görüşək, bəlkə bir də görüşmədik..."

2008-ci il avqustun 4-də mən bir daha onlarda qonaq oldum. Bu dəfə isə onun şəklini çərçivəyə saldıraraq, hədiyyə etmək üçün yenə də onlara getdim. Göy rəngli taxta darvazadan içəri girərkən mən burada bir doğmalıq hiss etdim. Lakin evə daxil olan zaman ixtiyar qoca çox ağır vəziyyətdə yataqda uzanmışdı.

Mən orada çox oturmadım. Şəkli təqdim etdikdən sonra doğmaları ilə bir az söhbət etdim. Yola düşmək istəyirdim ki, azman sənətkar əlimi sıxdı: " Oğul, inşallah bir də görüşərik..."

Lakin onunla bir daha görüşmək mənə nəsib olmadı. Avqustun 12-də axşamüstü Vaqif Alıyevə zəng edib ustad sənətkarı soruşdum. Vaqif müəllim kədərlə elə həmin gün böyük ustadın torpağa tapşırıldığını dedi. Beləliklə, Şirvan Aşıq Məktəbinin nəhəng sənətkarı Aşıq Əhməd Rüstəmov ömrünün 88-ci ilində həyatla vidalaşdı. Avqustun 14-də səhər tezdən Kürdəmirə yola düşdüm və mərhumun yas mərasimində iştirak etdim...

**● Mahir ƏBİLOV**

**P.S.** **Biz yas mərasimində olarkən Vaqif Alıyev ustadın şagirdi gənc Əhməddən ustad vəfat etməmişdən qabaq həyat yoldaşına ithaf etdiyi şeirin lent yazısını səsləndirməyi xahiş etdi. Şeir çox təsiredici idi. Mən həmin dəqiqələrdə Şirvan Aşıq Məktəbinin görkəmli nümayəndələrindən biri olan Aşıq Yanvarın gözlərindən axan yaşın şahidi oldum.**

**İllər boyu arzuladığım bir istəyimə çatdım. Bu intəhasız arzu idi. Azman sənətkarla görüşdüm. Mən onu həm də həyatimizdə görmək istəyirdim. Amma nə edəsən ki, tale yazısından qaçmaq mümkün olmadığından biz həmişə bütün arzu və istəklərimizə çata bilmirik.**